# HAFİZ UNUDULMUR

Hafiz Səyyaf oğlu Mehdiyev Qarabağın füsunkar bir guşəsində - Ağdam şəhərinin Abdal-Gülablı kəndində anadan olub. Anası Ofeliya xanımın laylalarına, bayatılarına, şirin söhbətlərinə qulaq asa-asa təbiətin, dağların gözəlliyini yaxından duymuş, bu gözəlliyi dərk edib ona vurulmuşdu. Hər bir ailədə bacı-qardaş münasibətləri həmişə isti olub. Bacılar qardaşlarını çox istəyiblər. Təbii ki, bu istək qarşılıqlı olub, yəni qardaşlar da bacılarını sevib-əzizləyib hörmətini saxlayıblar. Bu sevgi, bu gözəl münasibət bütün ailələrdə yaşadılıb, yaşadılır da. Hafiz hələ uşaq yaşlarından öz qardaşlarından mehribanlığı, xoş rəftarı və sadəliyi ilə seçilirdi, üstəlik, çox zəhmət sevəndi. O, özünün böyüklərə hörməti, kiçiklərə mərhəməti ilə də seçilirdi. İnsanın ömrü, taleyi öz əlində deyil. Bir də atalarımız yaxşı deyiblər: "Yazıya pozu yoxdur". Bir sözlə, hərənin bir tale yazısı var, bir dərdi, sızısı var.

Hafiz 1974-cü ildə Ağdam rayonu Abdal-Gülablı kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 1984-cü ildə həmin məktəbi bitirmişdir.1984-cü ildə Kənd Təsərrüfatı Nazirliyinin nəzdində olan Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə texnikumuna daxil olmuş, 1989-cu ildə həmin texnikumu bitirmişdir.

Hafiz Mehdiyev hərbi xidmətini Moskva şə-



hərində baş vurmuşdur. Daha sonra 1989-cu ildə Bakı şəhəri dəniz donanmasında Atlet-9 gəmisində iş fəaliyyətinə başlamışdır.

1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi Dövlət Təhlükəsizliyi Komitəsi və Xarici İşlər Nazirliyinin qoşunları Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilərək dinc əhalini ağır texnikadan atəşə tutub. Bakı şəhəri qaranlığa qərq olub. Tanklar maşınların üstündən keçib. Avtomat silahlarından təcili yardım maşınları atəşə tutulub. Həlak olanlar arasında qadınlar, qocalar, uşaqlar, təcili yardım sürücüləri və başqa işçilər də olub.

Həmin qanlı 20 yanvar gecəsində Bakı şəhəri dəniz donanmasında 120 gəmi dayanmadan fit verib. Azğın Sovet imperiyasının buxtanın boşalmasına, gəmilərin geri çəkilməsi əmri verilməsinə baxmayaraq, 120 gəmidən biri də geri çəkilməyib. Gəmiçilər Buxtanı tərk etmirlər. Hafizin bacısı Naibə xanım bu qanlı olayı belə xatırlayır: "Gəmilər Sovet imperiyası qoşunları tərəfindən atəşə tutularaq qardaşım Mehdiyev Hafizi və digər yoldaşları 88 nəfər olmaqla İlyanovski şəhərinə həbsxanaya aparırlar. Əsirlər bir ay müddətində işgəncələrə məruz qalırlar. Həbsxanada onlara dözülməz işgəncələr verilir. Gəminin adı Aflet-9, kapitanı Hüseynov Ümudvar, indiki gəminin kapitanı Ramiz Hacıyevdir. Dövlətimizin tələbi ilə qəhrəman dənizçilərin vətənə qayıtmasında həmyerlimiz Göyçaylı Variz Məcidovun da çox fədakar əməyi olmuşdur".

Mehdiyev Hafiz könüllü olaraq birinci Qarabağ müharibəsində kəndimizin müdafiəsi uğrunda ordu sıralarına qoşulur, bir müddət xidmət edir. Səhhəti, xəstəliyi yol verməndiyinə görə o, ordudan təxris olunur.

Sonralar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) 20 Yanvar faciəsi zamanı dənizçilərin göstərdiyi şücaət və birliyə həsr olunmuş "20 yanvarda doğulanlar" bədii-sənədli filminin təqdimat mərasimi keçirilib. Təqdimat mərasimindən əvvəl qurumun rəhbərliyi və kollektivi Qanlı Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Şəhidlər Xiyabanını ziyarət ediblər.

ASCO-nun sədri Rauf Vəliyev çıxış edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyasının qoşun birləşmələrinin Bakıda törətdiyi cinayətlərin yalnız Azərbaycan xalqına deyil, ümumbəşəri dəyərlərə qarşı törədilən cinayət olduğunu bildirib.

Rauf Vəliyev qeyd edib ki, o dövrdə nəinki hadisələrə siyasi qiymət verilməyib, əksinə, səbəbkarların və günahkarların adları belə xalqa açıqlanmayıb. Yalnız Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilib. ASCO-nun sədri vurğulayıb ki, "2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsi Azərbaycanın böyük Qələbəsi ilə başa çatdı. Torpaqlarımızın Ermənistan tərəfindən işğalına son qoyuldu, 30 illik həsrət bitdi və biz doğma yurd yerlərimizə qovuşduq. Bu Zəfərlə biz sonsuz qürur yaşadıq, ən əsası isə şəhidlərimizin qisası alınmış oldu".

20 Yanvar faciəsinin xalqımızın azadlıq mübarizəsinin rəmzi olduğunu deyən Rauf Vəliyev həmin günlərdə dənizçilərin də böyük fədakarlıq nümayiş etdirdiyini bildirib: "Hadisələrdən 30 ildən çox vaxt keçməsinə baxmayaraq, hələ də dənizçilərin qəhrəmanlığından danışılır. Məhz təqdimatına toplaşdığımız "20 yanvarda doğulanlar" bədii-sənədli film faciəni ilk dünya ictimaiyyətinə çatdıran, sovet imperiyasının törətdiyi qırğın və vəhşiliyin qarşısını almağa çalışan dənizçilərimizə həsr olunub. Bədii-sənədli filmin məqsədi 20 Yanvarda dənizdə yaşanan hadisələri, dənizçilərin göstərdiyi qəhrəmanlıqları geniş auditoriyaya çatdırmaq, bu tarixi gələcək nəslə doğru-düzgün ötürməkdir".

Sonra 20 Yanvar hadisələrinin canlı şahidi, veteran dənizçi Ağalar İbrahimov həmkarlarının şücaətindən iftixarla danışıb. Bildirib ki, 20 Yanvar hadisələri zamanı xalqımızla həmrəy olan dənizçilərin göstərdiyi qəhrəmanlıqlar daim yüksək qiymətləndirilib. O, ASCO-nun təşəbbüsü ilə çəkilən bədii-sənədli filmin buna bariz nümunə olduğunu deyib və filmin çəkilməsində rolu olan hər kəsə minnətdarlığını bildirib.

Ekran işinin quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Elxan Cəfərov filmin istehsalat prosesindən danışıb. O bildirib ki, ssenari tarixi araşdırmalar nəticəsində üzə çıxan arxiv sənədlər, şahidlərin və ekspertlərin söylədiyi faktlar əsasında hazırlanıb. Filmin ssenarisinin yazılmasına və çəkilişlərinə ölkəmizlə yanaşı, xaricdən dəvət olunmuş görkəmli kino işçiləri cəlb edilib.

20 yanvar faciəsinin acı xatirələrindən danışan Hafizin səhhətində bir neçə xəstəlik baş qaldırmışdı. O, onkoloji xəstəlikdən əziyyət çəkirdi. Həkimlərin təyin etdiyi müalicəyə baxmayaraq, 15 iyun 2018-ci ildə dünyasını dəyişib. Mehdiyev Hafiz vətənini, xalqını sevən qəhrəman dənizçilərdən biri idi. Qəhrəman dənizçilər barədə "20 yanvarda doğulanlar" filmində Hafizin də adı çəkilmişdir. O, Bakı şəhəri Binəqədi rayon qəbiristanlığında dəfn olunub.

Düşmənin vurduğu yaralar sağalmır, ildən-ilə sızıldayır, adama ötənləri andırır, unudulmur. Ağzında düşmən deyirsən... 20 Yanvar faciəsindən düz 35 il vaxt keçir, amma 20 Yanvar şəhidləri həmişə anılır; şəhid məzarları qərənfillərlə örtülür, bu müqəddəs məkanın - Şəhidlər Xiyabanının ziyarətçiləri çox olur. Hamı Azərbaycanımızın azadlığı və müstəqilliyi uğrunda canından keçən şəhidlər önündə baş əyir, onları ehtiramla xatırlayır.

Hafiz də unudulmur, həmişə qəbri üstə qərənfillər düzülür, bu cəsur dənizçi xatırlanır.

***Almara NƏBİYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru***